# Quba teatrı:

## Xatirələrdən könüllərə və könüllülərə...




Fətəli xan küçəsi ilə üzüaşağı, Quba meydanına doğru gedirdim. Qarşıdan ağır-ağır gələn ağbirçək qadına yaxınlaşanda bir-birimizi tanıdıq. Vaxtilə Quba Dövlət Dram Teatrında çalışan, teatr bağlanandan sonra fəaliyyətini qonşu Dağıstanda, Dərbənd Dram Teatrında davam etdirən, Dağıstanın xalq artisti Düriyyə Rəhimova idi. Hər dəfə Qubaya təşrif gətirəndə bizim Mədəniyyət evinə gəlir, hal-əhval tutur, yaradıcılıq işlərimizlə maraqlanır, tövsiyələrini verirdi. Budəfəki gəlişindən xəbərim yox idi.

- Nə yaxşı görüşdük. Deyəsən bir az qayğılı görünürsünüz...

- Çox qocalmışam, oğlum. Dedim bir doğma yurdumu gəzim. Bəlkə heç bir də Qubaya yolum düşmədi. Təskinlik verməyə çalışma. Yaş öz işini görür. Artıq ömrün qürub çağıdır. İstəyirəm Qubaya doyunca baxım.

- İndi hara gedirsiniz belə?

- Keçmiş Quba teatrının yerləşdiyi binaya baxmaq istəyirəm. Ömrümün gənclik çağları o teatrda keçib.

- Olar ki, mən də sizinlə gəlim?

- Nə deyirəm, gedək.

Sülh küçəsinə dönüb "Sevinc" sarayına doğru addımladıq. Quba teatrı vaxtilə Mədəniyyət evi olan bu binada fəaliyyət göstərmişdi. Sonralar bina şadlıq sarayına çevrilmişdi. Son illərdə isə müasir tipli, daha çox tutumlu saraylar inşa olunduğundan indi qədim məkana gedib-gələn yoxdur.

Düriyyə xanım xatirələrini bölüşür: "Azərbaycanın ilk bölgə teatrı olan A.Bakıxanov adına Quba Dövlət Dram Teatrı bax burada fəaliyyətə başlayıb. O vaxtlar Voroşilov adına klub adlanırdı. Onu da deyim ki, Qubada hələ 1890-cı illərin axırlarında teatrlaşdırılmış kiçik səhnəciklər hazırlanırdı. 1940-cı ildə həmin Voroşilov klubunda kolxoz-sovxoz teatrı yaradıldı. 1946-cı ildə kolxoz-sovxoz teatrı dövlət dram teatrına çevrildi və teatra A.Bakıxanovun adı verildi. O vaxt mən yeniyetmə uşaq idim. "Sevil", "Arşın mal alan", "Ər və arvad" tamaşalarına həvəslə gedib tamaşa edirdim. Sonralar bu sənətə elə bağlandım ki, özümü teatrsız, tamaşasız təsəvvür edə bilmədim. Quba teatrında 50-ə yaxın obrazı canlandırmışam".

Sarayın qədim, möhkəm qapıları bağlı idi. Gözətçidən içəri keçib otaqlara və zala baxmaq üçün qapıları açmağı xahiş etdim. Etiraz eləmədi. Yəqin sarayda nəsə mərasim, tədbir hazırlamaq fikrində olduğumuzu düşünmüşdü. Düriyyə xanım dəhlizin divarlarındakı qədim naxışlara, pəncərələrə, qapılara həyəcanla baxırdı. Sarayda müasirliklə yanaşı qədimlik də diqqət çəkirdi. Elə yaşlı aktrisanı duyğulandıran da bu naxışlar, qapılar, otaqlar idi.

- Bax, bura qrim otağı kimi fəaliyyət göstərirdi. Səhnəyə giriş isə bu qapıdan idi.

Zala daxil olduq. Səhnə bəy-gəlin və musiqiçilər üçün uyğunlaşdırılmışdı. Lakin arxa divardakı barelyef formalı teatr təsvirlərinə toxunulmayıb. Düriyyə xanım da bu təsvirlərə baxa-baxa üzü səhnəyə doğru oturacaqların birində əyləşdi.

"Bəs teatr niyə bağlandı?" – deyə, soruşdum.

Dərindən ah çəkdi. Əllərini sinəsində çarpazlayıb xeyli susdu.

- Teatrda erməni əsilli, Anik ləqəbli Anaida Şaginyan adlı aktrisa vardı. Nədənsə bütün müsbət rollar, baş rollar ona verilirdi. Şaginyan teatrda çalışan digər millətlərə kin və nifrət bəsləyirdi. Bir gün o, teatrın müdiri Məmmədağa ilə evləndi. Elə o vaxtdan da teatrın qara günləri başladı. Sonralar görkəmli aktyorlar kimi tanınan Səyavuş Aslan, Ofeliya Aslan, Məcnun Hacıbəyov, Azərbaycan səhnəsinin böyük rejissorlarından olan Ağakişi Kazımov gənclik illərində Quba teatrında çalışıblar. Gülsüm Fərəczadə, Məmməd Əhmədov, Mustafa Süleymanov, Cavanşir Əhmədov, Metetya Ravinov, Əli Cəfərov kimi istedadlı aktyorlarımız da var idi. Şaginyanın tamahkarlığı teatrımızın bağlanması ilə nəticələndi.

Ağbirçək aktrisanın gözləri dolmuşdu. Elə bu vaxt zala ağsaçlı, cüssəli bir kişi daxil oldu. Rəsmi, səliqəli geyinmişdi. Çöhrəsindən ziyalı olduğu bəlli idi. Gümrah səslə salam verib ətrafa, səhnəyə, divardakı və tavandakı qədim təsvirlərə tamaşa etdi:



- Qubaya elmi konfransa gəlmişdim. Dedim bir keçmiş Quba teatrının binasına baş çəkim. Bu bina mənə həm sənəti, həm də gəncliyimi xatırladır.

Tanıdım. Məşhur teatrşünas alim, professor İnqilab Kərimov idi. Hörmətlə salamlaşıb tədqiqatlarını həvəslə oxuduğumu bildirdim.

Heykəl kimi donub qalan qadına diqqətlə baxdı:

- Olmaya siz Düriyyə Rəhimovasınız?

- İnqilab müəllim, səsiniz elə gəncliyinizdəki gurluğunda qalıb. Əcəb işdir siz də, mən də bu gün təsadüfən Quba teatrını yad etməyə gəlmişik.

- Hə, mən teatrda sizin oynadığınız rollara tamaşa etmişəm. O vaxt bir neçə dəfə teatrşünas kimi Quba teatrına ezam olunmuşdum. Heç yadımdan çıxmaz, 1962-ci ilin əvvəlləri idi. “Azərbaycan gəncləri” qəzetinin redaktoru, tanınmış jurnalist, yazıçı Cəmil Əlibəyovla görüşdüm. Quba Dövlət Dram Teatrındakı özbaşınalıqdan bəhs edən çoxlu imzasız şikayət məktublarını göstərib dedi: “Belə səpkili məktubların arası kəsilmir. Xahiş edirəm, Qubaya gedib məktublarda yazılanları yoxlayasan. Məsəl var, deyərlər, od olmasa, tüstü çıxmaz”. Razılaşdım, ezamiyyə vərəqini götürüb, səhəri günü avtobusla yola düşdüm. Gündüz saat üçdə Qubaya yetişib, birbaşa teatra getdim, gözətçidən başqa heç kəs yox idi. Gözətçi Məmmədağanın (teatrın direktoru) iki gündür ki, İrəvana qaynının ad gününə getdiyini,ona görə də tamaşaların təxirə salındığını dedi: “Axı tamaşadakı əsas rolları Məmmədağanın arvadı Şaginyan ifa edir. Yəqin ki, bu gün olmasa da, sabah qayıdarlar. Aktyorlar da bağdakı çayxanada olarlar...” Səhər teatra gələndə məni 45-50 yaşlarında ucaboylu, möhkəm bədənli, qarabəniz bir nəfər qarşıladı, gülə-gülə əl uzadıb: – Məmmədağa, – söylədi və mənə imkan vermədən, – a kişi, gəlişin barədə bir xəbər verəydin də, heç yaxşı olmadı. Sonra yan otaqdan bir nəfəri çağırıb: – Tez get Cəfər kişiyə de, günortaya yaxşı yemək hazırlasın, hörmətli qonağım var.

Yarıciddi, yarızarafatla soruşdum:– Hardan bildin ki, hörmətliyəm, biz ki, ilk dəfədir görüşürük? Mən hələ özümü təqdim etməmişəm. Bic-bic qımışdı:– Ay pir olmuş, bunu bilməyə nə var? Gözətçi ucundan-bucağından mənə danışıb. Əsası odur ki, mənim gözlərim sərraf gözləridir. Qolumdan tutub: – Gedək kabinetimə, sənə pürrəngi, mürəbbəli çay verim, – dedi.

Teatrın səhnəsinə, qrim otaqlarına baxmaq istədiyimi bildirdim. Etiraz etmədi, salona baxıb, paltarsaxlanan otağa keçdik. Geyimlər kif iyi verirdi. Foyeyə keçdik. Bu gün hansı tamaşanı göstərəcəksiniz? – sualım elə bil onu arı kimi sancdı. Hirsini zorla boğdu: – Bu gün tamaşa olmayacaq, “Qatır Məmməd”i göstərməliydim. Yasəmən rolunu oynayan aktrisa xəstələnib.

Rolun ikinci ifaçısının olub-olmadığını soruşdum.

– Canım nə qoyub, nə axtarırsan, bura Bakıdakı Dövlət DramTeatrı deyil ki, aktrisalar rol üçün növbəyə dursunlar? Bir də ki, Yasəmən rolunu oynayan akrtrisa Şaginyandan sonra bu rolu kimə etibar etmək olar? Əslində özü də buna razı olmaz, teatrın altını üstünə çevirər. Bir neçə gün əvvəl Bakıdan bir neçə gənc göndəriblər. Biri rejissordu, Ağakişi (Xalq artisti Ağakişi Kazımov), biri aktyordur Səyavuş adında (Xal qartisti Səyavuş Aslan), biri də aktrisadır, deyəsən Səyavuşun arvadıdır (Ofeliya Əfqanlı-Aslan). Nə bacarıq var, nə istedad, gəl ki iddiaları yerə-göyə sığışmır. O gün ağzından süd iyi gələn aktrisa gör mənə nə deyir: “Məmmədağa müəllim, məni Şaginyana dublyor yazın da, axı 50 yaşlı qadın nə vaxta qədər 18-20 yaşlı qız rollarını oynayacaq? Elə bil dünya başıma hərləndi; qonaq olmasaydı cavabını verərdim. Ağakişi də mən hazırlayan tamaşaları bəyənmir, deyir primitivdir. Gördüm yox, bu uşaqlarla bir iş görmək olmaz. Dedim necə gəliblər,eləcə də getsinlər.

Mən Ağakişinin də, Səyavuşun da, Ofeliya xanımın da istedadına bələd idim. Bu gənclərin böyük gələcəyinə inanır və ümid bəsləyirdim. Ancaq Məmmədağanın “necə gəliblər, eləcə də getsinlər” fikrinə ürəkdən



razı idim. Çünki Məmmədağanın danışıq və rəftarından hiss edirdim ki, onlar burada "bataqlığa düşən adam kimi" məhv olacaqlar. Bir qədər sonra teatrın tanınmış, qabaqcıl aktyorlarından Əli Cəfərov (görkəmli filoloq, alim, Əkrəm Cəfərin qardaşı oğlu) və Mustafa Suleymanov (sonralar Azərbaycan Dövlət Akademik Dram Teatrında işlədi) gəldilər. Məmmədağa dil-boğaza qoymurdu. Aktyorlar isə susur, narazılıq işarəsi olaraq, başlarını yırğalayırdılar. Mən aktyorlarla ayrılıqda söhbət etməyi vacib bildim. Fürsət tapıb görüşdüm. Əli, Mustafa və digər aktyorlar da bir ağızdan bildirdilər ki, bu teatrda heç bir qayda-qanun, nizam-intizam yoxdur, yaradıcılıq işi barədə düşünülmür. Özbaşınalıq hökm sürür, Məmmədağa milliyətcə erməni olan arvadının dediyi ilə durub-oturur, teatrda direktor o yox, arvadı Şaginyandır. Rolları da o bölür. Cavan qız, qadın rollarını özünə götürür. Elə olur ki, tamaşada ana qızından cavan görünür. Məsələn, "Qatır Məmməd" tamaşasında Gülcamal rolunu Şaginyan, anası rolunu 23 yaşlı cavan aktrisa ifa edir. "Vaqif" tamaşasında Şaginyan Xuramanı, cavan aktrisa Gülxarın anası Əminə rolunda çıxış edir. Məmmədağanın 11 yaşında oğlu tamaşanın ən dramatik yerində iti səhnəyə çıxarıb əylənir, soskanı su ilə doldurub paltarların üstünə tökür. Maaşlar vaxtlı-vaxtında, həm də tam şəkildə verilmir. Aktyorlar, texniki işçilər Quba Dövlət Dram Teatrında irili-xırdalı nöqsanlardan, tez-tez baş verən xoşagəlməz hadisələrdən ürək yanğısı ilə yana-yana danışdılar. Sadalanan nöqsanlara son qoyulması diləyi ilə Məmmədağa ilə görüşdüm. Eşitdiyim şikayətləri ona deməyə başlamışdım ki, o bildirdi:

– Pah atonan, indi gəl bu məxluqa yaxşılıq elə. Ə kişi, onların əyinlərindəki qəstyumları da mən almışam. Çox həyəcanlı olduğu üçün (hər halda özünü belə göstərirdi) söhbəti kəsdim, aktyorların yanına gəlib söylədim: – Deyirsiniz ki, maaşlarınız vaxtlı-vaxtında verilmir, həm də müəyyən bəhanə ilə kəsilir. Əyninizdəki kostyumu da o alıb ki? Əli Cəfərov başını buladı. Mustafa Süleymanov: – Düz deyir o alıb. Ancaq necə? Getmişdik qostrola, pal-paltarımız sökülüb-dağılırdı, boynu, qolları çox işləndiyindən ipləri çıxıb, astarı görünürdü. Ağdaş rayonunda olanda bizi mağazaya aparıb hərəmizə 880 manata bir kostyum aldı. Altı aydır 880 manatı üç dəfə ödəmişik, hələ də borcundan çıxa bilmirik ki, bilmirik...

Doğrusu, ürəyimdə kədərə bürünmüş bir nifrət oyandı. Kədər cəfakeşliklə həyatda və səhnədə bir iş görmək, insanlara xidmət etmək istəyi ilə yaşayan, fəqət yalnız öz mənfəətini güdən nadan, cahil bir müdir əlində yazıqlaşan, fağırlaşan aktyorların vəziyyətindən doğmuşdu; nifrət isə öz milli mənliyini dərk etməyən, bir erməni qadınının hikkəli, hegemon rəftarına rəğmən hərəkət edən savadsız, düşüncəsiz, mənəviyyatsız bir teatr direktoruna yönəlmişdi. İstədim gedib onu rüsvay edim, yenə də səbirli olmağa üstünlük verdim. Amma iradlarımı sadaladım: teatrda vəziyyət çox pisdir, hamı sizdən şikayətçidir. Arvadınızın hikkəsi, hegemonluğu, oğlunuzun şıltaqlığı insanları təngə gətirib. Bəlkə... Mən danışdıqca dişini qurdalayan, qulağının dalını qaşıyan, hiyləgərcəsinə gülümsəyən direktor söz bu yerə çatanda ilan vurmuş adam kimi yerindən qalxıb, hirslə: – Bilirsən nə var, hər kim nə deyir, desin mənim vecimə deyil. Sən də cavan oğlan, eşit, bura Məmmədağa teatrıdır. Vəssalam, - dedi. Məni heyrət bürüdü, bir söz demədən otaqdan çıxdım; istədim həmin an Bakıya qayıdam; aktyorlara verdiyim söz yadıma düşdü. Xahiş etmişdilər ki, axşam "Qatır Məmməd" tamaşasına baxım. Baxdım. Hər hansı tənqidə dözümsüz bu zəif, solğun tamaşa məni dəhşətə gətirdi. Hündürboylu, əndamlı Şaginyan kobud hərəkətləri, qulaqbatıran gur, heybətli səsi ilə obrazı gülünc bir vəziyyətə salmışdı...

Səhər tezdən Bakıya yola düşdüm. Ertəsi gün Quba Dövlət Dram Teatrındakı vəziyyəti yerli-yataqlı "Azərbaycan gəncləri" qəzetinin redaktoruna danışdım. "Xalq teatrlarından da bir addım geri" adlı məqaləm qəzetdə çap olundu. Məqalə qəzetdə çap olunandan iki gün sonra işə gedirdim. Çalışdığım Memarlıq və İncəsənət İnstitutu Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinin binasında yerləşirdi. Bu yolda işləyən tramvaya mincək Məmmədağayla rastlaşdım. O, irişə-irişə, həm də rişxəndlə: – Nə olsun ki, yazdın, ona baxan kimdi, – deyib məndən aralaşdı. Varlığımda naxoş bir duyğu hiss etdim. Fikir məni götürmüşdü. Vaxt itirmədən nazirliyə getdim, köməkcisinin narazılığına, müqavimətinə baxmayaraq nazir Məmməd Qurbanovla görüşüb Quba teatrındakı acınacaqlı durumu çatdırdım.

Nazir fikrə getdi. Düyməni basıb, köməkcisini çağırdı, incəsənət işləri idarəsinin sədrini istədi. Tapşırdı ki, bir həftədən sonra nazirliyin kollegiyası çağırılsın: "Quba Dövlət Dram Teatrının işi müzakirə olunacaq. O vaxta kimi iki nəfəri Qubaya ezamiyyətə göndərin. Həmin teatrın işi barədə ətraflı arayış hazırlasınlar. Kollegiyaya bütün teatrların direktorları çağırılsın. Ədil İskəndərovu, Mehdi Məmmədovu, Tofiq Kazımovu, vaxtilə bizim işçimiz olan bu cavan oğlanı da dəvət edin".





Kollegiyada Məmmədağanın iş üsulu möhkəm tənqid atəşinə tutuldu, teatrın pis vəziyyətdə, aşağı səviyyədə, ölü durumda olduğu bildirildi. Qərara alındı ki, Quba Dövlət Dram Teatrı bağlansın.

İnqilab müəllim danışdıqca Düriyyə xanım da xatirələrə dalır, həmin günləri yada saldıqca gözləri dolurdu.

- Bilirsiniz, teatr bağlananda biz qastrolda idik – Qaxda. 1962-ci ilin soyuq günlərindən biriydi. Teleqram aldıq və sarsıldıq. Məmmədağa nazirliyə zəng vurdu, amma faydası olması. Avtobusda hamımız sarsıntı keçirir, kədərlə Qubaya qayıdırdıq...

Üçümüz də dərin düşüncələrə dalmışdıq. İnqilab müəllim ayağa qalxıb getməli olduğunu bildirdi. Bir addım atıb birdən geri döndü, Düriyyə xanıma diqqətlə baxıb üzünü mənə tərəf döndərdi:

- Cavan oğlan, Qubanın teatr ənənəsi var. Çalışın bu ənənəni davam etdirin. Qubada teatr bərpa olunmalıdır. Özü də müasir, peşəkar bir teatr!

Bunu deyib iti addımlarla zaldan çıxdı və bizi tərk etdi. Sağollaşarkən Düriyyə xanım da yaxınlıqda yaşayan qardaşıgilə gedəcəyini bildirib ayrıldı. İnqilab müəllimin Quba teatrı haqqında sözləri isə həmişəlik yaddaşıma həkk olundu və getdikcə məni narahat etməyə başladı. Sonralar xalq artisti Səyavuş Aslanla görüşərkən Quba teatrından söz açdıq. Səyavuş müəllim də ayrılanda bir qədər niskilli, bir qədər də amiranə səslə təkrar elədi: - Qubada teatrı bərpa edin. Nə lazım olsa mən də, digər teatr xadimləri də kömək edərik.

Həmin görüşdən illər keçib. İnqilab müəllim, Düriyyə xanım, Səyavuş müəllim artıq dünyasını dəyişib. O xatirələr və ayrı-ayrı mənbələrdən topladığım məlumatlar qəlbimi rahat buraxmırdı. Quba teatrı haqqındakı düşüncələrim bir-birini əvəzləyirdi. Vaxtilə bu teatrda çalışan adamlarla, teatrın o zamankı tamaşaçıları ilə görüşlərimdən topladığım xatirələr, qubalı filoloq, alim N.Qəhrəmanlının araşdırmalarından əldə etdiyim məlumatlar məni Quba teatrı haqqında yazmağa sövq edirdi. Azərbaycanın ilk əyalət teatrı olan A.Bakıxanov adına Quba Dövlət Dram Teatrının 22 illik fəaliyyət dövrü gözlərim qarşısında canlanırdı.

Əslində Qubada teatr ənənəsi XIX əsrin sonundan başlayır. Həmin dövrdə burada mədəni mühit bərqərar olmaqda, kitabxana və qiraətxanalar açılmaqda idi. Həvəskar aktyorlar tərəfindən tamaşaların göstərilməsi, dram əsərlərindən ayrı-ayrı parçaların səhnələşdirilməsi tamamilə təbii görünürdü. Burada müəllimlərdən Şıxəli Nəzirov və Ağababa Yusifzadə ayrı-ayrılıqda teatr truppaları təşkil etmişdilər. İlk teatr tamaşası XIX əsrin sonunda, Azərbaycanda teatr irsinin formalaşması və güclənməsi ilə bir vaxta təsadüf edir. Bu zaman teatr ümummədəni prosesin bir hissəsi kimi meydana çıxırdı. 1896-cı ildə yerli həvəskarların tamaşaya qoyduğu "Müsyö Jordan" komediyası yerli qiraətxananın nəfinə oynanılmış, burada hasil olan pul da qiraətxananın hesabına keçirilmişdi.

Qubalı ziyalılar da teatr sənətinin inkişafına töhfələr vermişdilər. Mehdi bəy Hacınskinin Azərbaycan səhnəsinin inkişafında, bu səhnə



üçün ilk əsərlərin yazılmasında tamaşaya qoyulmasında mühüm rolu olmuşdur. Azərbaycanın ilk qadın dramaturqu və rejissoru Səkinə xanım Axundzadə də Qubada şair ailəsində doğulmuş, boya-başa çatmışdı. XX əsrin əvvəlində əslən Qubadan olan Bababəy Qubalı, Yeva Olenskaya, Ələziz Hüseynov və s. aktyorların teatrın inkişafında müəyyən xidmətləri vardı. Ənənələrin davamlılığına baxmayaraq Qubada peşəkar teatrın əsası sovet dövründə, daha dəqiqi 1940-cı ildə qoyulmuşdur. Həmin il Quba Dövlət Dram Teatrı yaradılmış, kollektiv dəyərli yaradıcılıq yolu keçərək rəngarəng repertuarı və maraqlı tamaşaları ilə uzun müddət diqqət mərkəzində olmuşdur.

Görkəmli mədəniyyət xadimi, istedadlı aktyor və rejissor İsa Musayevin teatra direktor və bədii rəhbər təyinatı teatrın daha qısa müddətdə təşkilinə və inkişafına güclü təkan verdi. Teatrın ilk tamaşalarından biri S.Vurğunun "Vaqif" pyesinin səhnə təcəssümü olmuşdur. "Kommunist" qəzetinin 18 aprel 1941-ci il tarixli sayında teatrın hazırladığı bu tamaşa haqqında deyilirdi: "Teatrın inkişaf edən gənc kollektivi tamaşanın öhdəsindən bacarıqla gəlmişdir. Teatrın bədii rəhbəri və rejissoru İsa Musayev Vaqif rolunu çox gözəl oynamışdır. Artistlərdən İmamverdi Bağırov Ağa Məhəmməd şah Qacar rolunda yaxşı çıxış etmişdir. "Vaqif" pyesinin birinci tamaşası böyük müvəffəqiyyətlə keçmişdir".

Böyük Vətən müharibəsi illərində hərbi hissələr qarşısında verilən tamaşalar vətəndaşlarımızın müdafiə əzminin artmasına, qəhrəmanlıq tərbiyəsində mühüm rol oynayıb. 3 sentyabr 1942-ci il tarixli "Ədəbiyyat qəzeti" İsa Musayevin hesabat xarakterli bir məqaləsini çap etmişdi. Məqalədə Quba Dövlət Dram teatrının öz işini müharibə templərində qurmasından, aktyor kollektivinin komplektləşdirilməsindən və repertuarın yeni əsərlərlə zənginləşdirilməsindən bəhs olunurdu. İ.Musayev yazırdı ki, teatr 1942-ci il repertuarına S.Vurğunun "Fərhad və Şirin", O.Sarıvəllinin "Babək", M.İbrahimovun "Madrid", M.H.Təhmasibin "Aslan yatağı", Z.Xəlilin "İntiqam", M.F.Axundovun "Dərviş Məstəli şah" komediyasını, Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operasını, S.Rüstəmovun "Beş manatlıq gəlin" komediyasını daxil etmişdir:

"Əzizbəyov adına Azərbaycan Dövlət DramTeatrının kollektivimizə yaxından göstərdiyi köməyi nəzərdən qaçırmaq olmaz. Ədil İsgəndərov yoldaşın təşəbbüsü ilə xalq artistlərindən Sidqi Ruhulla, Mirzağa Əliyev, Ələsgər Ələkbərov yoldaşlar Quba Dövlət Dram Teatrına gəlib kollektivimizə yaxından kömək göstərmişlər. Ədil İsgəndərov yoldaş bizim aktyorlarımızla individual olaraq yaradıcılıq işi aparmış, onların düzgün inkişafına yardım etmişdir. Teatrın baş rəssamı, əməkdar incəsənt xadimi Nüsrət Fətullayev "Fərhad və Şirin" pyesinin bədii tərtibatını öz üzərinə götürmüşdür".

Təəssüf ki, 40-cı illərin sonu - 50-ci illərdə teatrın maddi və mənəvi imkanları zəifləməyə başladı. Maddi yardımlar kəsildi və teatr iflas qorxusu ilə üz-üzə qaldı. Arxivdə bir məktub var. 1950-ci ildə Səməd Vurğuna yazılıb: "Azərbaycan xalqının fəxri, sevimli şairimiz, hörmətli yoldaşımız Səməd Vurğun! Quba Dövlət Dram Teatrosunun kollektivi sevimli şairimizə salam göndərir və bir neçə şey xahiş edir.

Azərbaycan xalqının sevimli rəhbəri yoldaş M.C.Bağırovun vətəni Azərbaycan rayonlarına nisbətən daha inkişaf etmiş və mədəni bir şəhərə çevrilmişdir. Lakin Bakıxanov adına Dövlət Dram teatrosu-

nun vəziyyəti hazırda dözülməzdir. Sabiq direktorun səhlənkarlığı və cinayətləri üzündən teatr çıxılmaz vəziyyətə düşmüşdür. Teatro yerli orqanlara və müəlliflərə 80 min manat borcludur. Kollektiv 4 aya yaxındır maaş almamışdır. Bunlara əsasən teatronun gəlirindən Quba bankında 50% müəllif hüququnu müdafiə edən idarə tərəfindən tutulur. Kommunxoz tez-tez teatronun işığını kəsir. Hazırda teatro institutunu bitirmiş üç ali savadlı aktyor və rejissor, ali savadlı rəssam və qocaman artist Azəriteatronun foyesində iki aydan artıqdır ki, yaşayırlar. 1948-49 və 1950-ci illərdən qalan borcları yerli təşkilatlar tələb edirlər. Teatro bu borcları ödəməyə qadir deyildir. 150 minə yaxın borcun qarşısında işləmək qeyri-mümkündür.

Bütün teatronun kollektivi sevimli şairimiz və deputatımızdan xahiş edir ki, Quba teatrosunun yenidən işıqlanması üçün Dövlət qarşısında təşəbbüsdə bulunsun" (məktuba kollektivin 15 üzvü imza atmışdır). (Respublika Əlyazmalar İnstitutu, f. 27, siyahı 1, s.-v. № 477).

Təəccüblüdür ki, şagird dəftərindən qoparılmış bu qoşa vərəqdə heç bir qətnamə və dərkənar yoxdur. Heç ola bilməzdi ki, 1950-ci ildə Qubadan respublika Ali Sovetinin deputatı seçilmiş S.Vurğun öz seçicilərinin məktubuna məhəl qoymasın. Qara mürəkkəblə yazılmış bu məktub ümidsizlik ovqatı ilə doludur. Məktubdan aşkar görünür ki, teatrın vəziyyəti ağırdır. Məktubun sonrakı taleyindən xəbərsiz olduğumuzdan onun nə ilə nəticələndiyini bilmirik. Çox ehtimal ki, S.Vurğun onu öz deputat blankında aidiyyəti olan ünvanlara, ya Azərbaycan KP MK-ya, ya da respublika Mədəniyyət Nazirliyinə yollamışdı, lakin məktub haradasa cavabsız qalmışdı.

Quba teatrı ilə bağlı istər yaradıcılıq, istərsə də təminat-təchizat məsələləri də mətbuat səhifələrinə çıxarılmış, teatrşünas Cabir Səfərov "Quba teatrında xalturaya son qoymalı" adlı bir məqalə ilə çıxış etmişdi (Ədəbiyyat və incəsənət, 1955, 12 fevral). C.Səfərov məqaləsində yazırdı: "...Son dörd-beş il ərzində Quba Dövlət Dram Teatrında müəyyən durğunluq əmələ gəlmiş, kollektiv öz realist yolundan uzaqlaşmağa başlamışdır. Bunun başlıca səbəbi aktyor kollektivinin işinə rəhbərlik edəcək rejissuranın zəifliyi, aktyor kollektivinin yeni istedadlı qüvvələr hesabına qüvvətləndirilməməsi, hazırlanan tamaşaların aktyor oyunu, geyim və bədii tərtib cəhətdən aşağı səviyyədə olmasıdır. Quba teatrının geridə qalmasının ikinci səbəbi aktyor və rejissor kadrlarının tez-tez dəyişdirilməsidir. Bu isə teatrda vahid yaradıcılıq üslubunun zəifləməsinə, aktyorların səhnə mədəniyyətinə yiyələnməsinə az ziyan vurmamışdır".

C.Səfərovun məqaləsi kollektivin Səməd Vurğuna müraciətindən cəmi beş il sonra yazılmışdı. Göründüyü kimi, burada kollektivin məktubu haqqında heç nə deyilmir. Lakin şairə məktubda göstərilən nöqsan və çatışmazlıqlar məqalədə də xatırlanır. Teatrın bağlanmasına hələ yeddi il vardı. Amma sürətlə keçib gedən illər vəziyyətdə dəyişiklik yaratmadı, digər teatrların ağır vəziyyətini Quba teatrı da yaşamalı oldu...

1962-ci il nöyabrın 2-də A.Bakıxanov adına Quba Dövlət Dram Teatrı bağlandı, onun bazasında Xalq teatrı yaradıldı.

Mədəniyyət evinin nəzdində fəaliyyət göstərən Xalq teatrı 80-ci illərin sonunadək bir sıra tamaşalar hazırlayırdı. Lakin aktyor truppası zəif idi. Vaxtilə Dövlət Teatrında çalışan aktyorların əksəriyyəti respublikanın müxtəlif teatrlarına getmişdilər. Xalq teatrından yalnız rejisor və rəssam rəsmi olaraq əməkhaqqı alırdı. Truppa üzvləri isə yalnız tamaşalar əsasında əldə edilən gəlirdən onlara düşən zəhmethaqqını ala bilərdi. Xalq teatrında tamaşaların hazırlanmasında İskəndər Həmidoğlunun, Akif Fərəczadənin xüsusi əməyi olmuşdur. Onların quruluş verdiyi tamaşalar bölgənin ayrı-ayrı rayonlarında da tamaşaçılara nümayiş etdirilirdi. 1990-cı ildən isə Xalq teatrının truppası tədricən dağıldı. Xalq teatrı yalnız ayrı-ayrı tamaşalardan səhnəciklər və yaxud teatrlaşdırılmış kompozisiyalar hazırladı.

Quba teatrı haqqında xatirələri, tarixi məlumatları toplayaraq yuxarıda oxuduğunuz yazını hazırladım. Lakin bununla teatrın porblemləri həllini tapmırdı axı... İnqilab müəllimin Quba teatrı ilə bağlı dediyi o sözlər teatrı bərpa etmək üçün təşəbbüskarlığı daha da artırmağa çağırırdı. Biz mədəniyyət işçiləri bir araya gələrək Quba teatrını bürüyən ətalət buzunu əritməyə qəti qərar verdik. Qubada teatr sahəsində mövcud 30 illik durğunluğu nəhayət ki, 2019-cu ildə aradan qaldırdıq. B.Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə hazırlanan "Biz Xocalıya qayıdacağıq" adlı tamaşa rayon tamaşaçılarına təqdim olundu. Bu tamaşadan ruhlanaraq biz teatr yaradıcılığını davam etdirməyi qərara aldıq. 2020-ci ilin ölkəmizdə prezident İlham Əliyev tərəfindən "Könüllülər ili" elan edilməsi Qubada teatr sənətinin inkişafına öz töhfəsini verdi. Müxtəlif sahələrdə çalışan, ayrı-ayrı yaş kateqoriyalarından olan həvəskarları Mədəniyyət Mərkəzinə dəvət etdik və teatr tamaşası hazırlamağı qərara aldıq. Beləliklə də Quba Könüllülər teatrı yaratdıq. Könüllülər teatrının ilk tamaşası görkəmli dramaturq C.Məmmədquluzadənin "Kamança" əsəri oldu. Tamaşa 2020-ci ilin fevral ayında nümayiş olundu. Artıq teatr truppası tam formalaşıb. İndi Könüllülər teatrı bölgənin ayrı-ayrı rayonlarına qastrol səfərlərinə hazırlaşır, eyni zamanda yeni repertuar üzərində çalışır. Koronavirus pandemiyası ilə əlaqədar Quba Könüllülər teatrı da Mədəniyyət Nazirliyinin "Evdə qal, evdə yarat" layihəsinə qoşularaq onlayn şəkildə məşqlərini davam etdirmişdir.

Qubada teatrın bərpa olunması yəqin İnqilab müəllimin də, Səyavuş müəllimin də, Düriyyə xanımın da, bu teatrla bağlı dünyadan nisgilli gedən insanların da ruhunu şad edər.

**Ramiz Ramazanlı**
B.Səfəroğlu adına Quba rayon Mədəniyyət
Mərkəzinin direktoru, AJB-nin üzvü

**Ədəbiyyat:**

1. İnqilab Kərimov. "Rəvayətlər", Bakı, "Avrasiya Press", 2011
2. Nazif Qəhrəmanlı. "Quba teatrı haqqında düşüncələr", "Qobustan" toplusu, 1-ci say, 2008